**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**Ə M R**

**№** 31

**Bakı şəhəri** "18" 04. 2018-ci il

**"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə"**

"İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 5-ci hissəsinin icrası məqsədilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərinin Siyahısı" təsdiq edilsin (1 nömrəli Əlavə ).

2. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərinin Siyahısı" təsdiq edilsin (2 nömrəli Əlavə).

3. Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzinin direktoru C.Əsəd-zadəyə tapşırılsın:

3.1. bu əmrin birinci hissəsi ilə təsdiq edilmiş Siyahının Səhiyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi təmin edilsin;

3.2. inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarların informasiya modulu vasitəsi ilə "ASAN ödəniş" sisteminə daxil edilməsi təmin edilsin.

4. Ümumi şöbənin müdiri L.Əli-zadəyə tapşırılsın ki, bu əmrin 1-ci və 2-ci hissəsi ilə təsdiq edilmiş Siyahıların Səhiyyə Nazirliyinin bütün struktur bölmələrinə və Siyahıda qeyd olunan müəssisələrə çatdırılması təmin edilsin.

5. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 26.11.2007-ci il tarixli 119 nömrəli əmri ləğv edilsin.

6. Əmrin icrasına nəzarət nazir müavini E.Ağayevə həvalə edilsin.

**Nazir** AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ ÜMUMİ ŞÖBƏ **Oqtay Şirəliyev**

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
18.04.2018-ci il tarixli 31 nömrəli
əmri ilə təsdiq edilmiş 1 nömrəli Əlavə

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərinin**

**SİYAHISI**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin inzibati xətalar haqqında işlərə aşağıda göstərilən səlahiyyəti olan vəzifəli şəxslər tərəfindən baxılır:

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-Məcəllə) 210, 225.1, 428.4, 428.4-1 və 452-ci maddələrdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Azərbaycan Respublikasının səhiyyə naziri;
- Azərbaycan Respublikasının səhiyyə nazirinin müavinləri;
- Aparatın rəhbəri, onun müavini;
- Hüquq və daxili nəzarət sektorunun müdiri.

2. Məcəllənin 211, 212.2 (inzibati icraata Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən başlandığı halda), 216, 217, 218, 219, 220 və 265-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Azərbaycan Respublikasının səhiyyə naziri;
- Azərbaycan Respublikasının səhiyyə nazirinin müavinləri;
- Aparatın rəhbəri, onun müavini;
- Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri;
- Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru, onun müavinləri, yerli bölmələrin direktoru və müavinləri.

3. Məcəllənin 213.0.1 və 213.0.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Azərbaycan Respublikasının səhiyyə naziri;
- Azərbaycan Respublikasının səhiyyə nazirinin müavinləri;
- Aparatın rəhbəri, onun müavini;
- Səhiyyə Nazirliyinin baş məsləhətçi-mətbuat katibi;
- Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru, onun müavinləri, yerli bölmələrin direktoru və müavinləri.

4. Məcəllənin 213.0.2, 213.0.3 və 214-cü maddələrdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Azərbaycan Respublikasının səhiyyə naziri;
- Azərbaycan Respublikasının səhiyyə nazirinin müavinləri;
- Aparatın rəhbəri, onun müavini;
- Tibbi yardımın təşkili şöbəsinin müdiri;

-Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru, onun müavinləri, yerli bölmələrin direktoru və müavinləri.

5. Məcəllənin 215-ci maddədə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:
- Azərbaycan Respublikasının səhiyyə naziri;
- Azərbaycan Respublikasının səhiyyə nazirinin müavinləri;
- Aparatın rəhbəri, onun müavini;
- Tibbi yardımın təşkili şöbəsinin müdiri;
- Hüquq və daxili nəzarət sektorunun müdiri.

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
18.01.2018c_ il tarixli 31 nömrəli
əmri ilə təsdiq edilmiş 2 nömrəli Əlavə

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərinin SİYAHISI**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol aşağıda göstərilən vəzifəli şəxsləri tərəfindən tərtib olunur:

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra-Məcəllə) 210, 225.1, 428.4, 428.4-1 və 452-ci maddələrdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

-Aparatın rəhbəri, onun müavini;

-Hüquq və daxili nəzarət sektorunun müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi, məsləhətçisi;

-Analitik Ekspertiza Mərkəzinin direktoru, müavini, Əczaçılıq subyekti ilə iş şöbəsinin müdiri, müavini, baş mütəxəssis və müfəttişləri, Özəl tibb subyektləri ilə iş şöbəsinin müdiri, müavini, baş mütəxəssis və mütəxəssislər.

2. Məcəllənin 211, 212.2 (inzibati icraata Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən başlandığı halda), 216, 217, 218, 219, 220 və 265-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Aparatın rəhbəri, onun müavini;
- Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri, baş məsləhətçisi, məsləhətçisi;
- Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru, onun müavinləri, Sanitariya-gigiyena, Radiasiya gigiyenası və Epidemiologiya şöbələrinin müdirləri, onların bölmə müdirləri, həmin şöbələrin həkim-gigiyenistləri və həkim-epidemioloqları.

3. Məcəllənin 213.0.1 və 213.0.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Aparatın rəhbəri, onun müavini;
- Səhiyyə Nazirliyinin baş məsləhətçi - mətbuat katibi;
- Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru, onun müavinləri, Sanitariya-gigiyena, Radiasiya gigiyenası və Epidemiologiya şöbələrinin müdirləri, onların bölmə müdirləri, həmin şöbələrin həkim-gigiyenistləri və həkim-epidemioloqları.

4. Məcəllənin 213.0.2 və 213.0.3, 214-cü maddələrdə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Aparatın rəhbəri, onun müavini;
- Tibbi yardımın təşkili şöbəsinin müdiri, müavini, baş məsləhətçisi, aparıcı məsləhətçisi, məsləhətçisi;

- Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktoru, onun müavinləri, Sanitariya-gigiyena, Radiasiya gigiyenası və Epidemiologiya şöbələrinin müdirləri, onların bölmə müdirləri, həmin şöbələrin həkim-gigiyenistləri və həkim-epidemioloqları.

5. Məcəllənin 215-ci maddədə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə:

- Aparatın rəhbəri, onun müavini;
- Tibbi yardımın təşkili şöbəsinin müdiri, müavini, baş məsləhətçisi, aparıcı məsləhətçisi, məsləhətçisi;
- Hüquq və daxili nəzarət sektorunun müdiri, baş məsləhətçisi, böyük məsləhətçisi, məsləhətçisi;
- Analitik Ekspertiza Mərkəzinin direktoru, müavini, Əczaçılıq subyekti ilə iş şöbəsinin müdiri, müavini, baş mütəxəssis və müfəttişləri, Özəl tibb subyektləri ilə iş şöbəsinin müdiri, müavini, baş mütəxəssis və mütəxəssislər.